# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 159** **Bakı şəhəri, 5 iyun 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695; 2013, № 10, maddə 1228; 2014, № 1, maddə 56; 2017, № 4, maddə 666; 2018, № 11, maddə 2431; 2019, № 2, maddə 357, № 11, maddə 1863; 2020, № 1, maddə 67; 2021, № 2, maddə 205; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 mart tarixli 67 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.8-ci bəndə "rəyləri əsasında" sözlərindən sonra "hər il aprelin 1-dək" sözləri əlavə edilsin.

2. 3.5-ci bənddə "AMEA və Nazirlik tərəfindən müəyyən edilən müddətlərdə hər il" sözləri "hər ilin iyun (xarici dil imtahanı) və sentyabr (fəlsəfə və ixtisas fənnindən imtahanlar) ayları ərzində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 8 iyun.- S.2.